# Vaqif ASLAN - 75



Hörmətli Vaqif müəllim!

Sizi - tanınmış şair və araşdırmaçını 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1950-ci il iyul ayının 5-də Şəki rayonunun Kiş kəndində anadan olmusunuz. İbtidai təhsilinizi Kiş kənd ibtidai, 8 illik təhsilinizi Kiş kənd səkkizillik, 10 illik təhsilinizi isə qonşu Oxud kənd orta məktəbində almısınız. 1968-1973-cü illərdə Azərbaycan Dillər Universitetinin "Fransız və Azərbaycan dilləri" fakültəsini bitirmisiniz. 1973-1993-cü illərdə Şəkinin Kiş kəndindəki orta məktəbdə öz ixtisasınız üzrə müəllimlik etmisiniz. 1994-1997-ci illərdə Şəki Regional Elmi Mərkəzində "Folklor və el sənətləri" laboratoriyasının rəhbəri olmusunuz. 1997-ci ilin sonlarından AMEA Nizami adına Ədəbiyyat İnstitutu nəzdində yaradılan Folklor Elmi-Mədəni Mərkəzinə, 2003-2013-cü illərdə isə Folklor İnstitutunun Şəki sektoruna rəhbərlik etmisiniz. 1995-ci ildən etibarən saathesabı olaraq ADU-nun, sonra Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialında "Azərbaycan ədəbiyyatı tarixi", o cümlədən "Türk xalqları ədəbiyyatı", "Azərbaycan ədəbi tənqidinin tarixi", "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" fənlərindən dərs demisiniz. Hazırda ADPU-nun Şəki filialında tam ştatda pedaqoji fəaliyyətinizi davam etdirirsiniz. 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyi Şəki bölməsinin sədrisiniz.

Ədəbi fəaliyyətə "Vaqif Aslanov", "Vaqif Cumayoğlu" imzaları ilə başlamısınız. 1970-ci illərin ortalarından "Vaqif Aslan" təxəllüsü ilə yazıb-yaradırsınız. Çox sayda elmi-ədəbi məqaləniz dərc olunub. İlk mətbu şeiriniz 1967-ci ildə Şəkidə çıxan "İpəkçi" qəzetində işıq üzü görüb. İlk kitabınız - "Aydın" 1993-cü ildə çapdan çıxıb. "Səyahətnamə" (XVII əsr fransız səyyahı Jan Batist Şardenin "Səyahətnamə"sinin 1711-ci il Amsterdam nəşrinin tərcüməsi), "Ruhlarla söhbət", "Oğuz elinə salam", "Qanımdan rəng alan gül (həmmüəllif Gülçöhrə Məmmədova)", "Seçilmiş əsərləri", "Bizim dünya adlı bir evimiz var" (Təbriz), "Ədəbi tənqid tarixi (fənn proqramı, həmmüəllif Gülarə Abdullayeva)", "Hüseyn xan Müştaq" kimi bədii yazılarınızdan və araşdırmalarınızdan ibarət kitablarınız nəşr olunub.

Səməd Vurğunun "Vaqif" pyesinin motivləri əsasında yazdığınız "Vaqif" mənzum dramı Şəki Dövlət Dram Teatrında (mart, 2016) və Azərbaycan Musiqili Teatrında (7-8 iyun, 2016) tamaşaya qoyulmuşdur. Bədii tərcümə ilə də ciddi məşğul olursunuz. Fransız dilindən Pol Verlenin şeirlərini, Öjen Dabinin "Tətil" hekayəsini, Erve Bazenin "Rədd olsun şapkalar!" hekayəsini, Jermen Giyomun "XVII əsrdən XIX əsrin əvvəllərinədək Fransa və İran arasındakı bədii mübadilədə səfirliklərin rolu" əsərlərini tərcümə etmisiniz. Siz həmçinin rus dilindən Mustay Kərimin "Ay tutulan gecə" faciəsini, Slavomir Mrojekin "Xoşbəxt hadisə" tragikomediyasını dilimizə çevirmisiniz. Hər iki əsər Şəki Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. Ədəbi fəaliyyətiniz mükafat və diplomlarla dəyərləndirilmişdir. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmisiniz.

Hörmətli Vaqif müəllim!

Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**